Mədəniyyət xəbərləri

# Görkəmli pianoçunun şərəfinə yubiley konserti

**Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, "İstiqlal" ordenli Xalq artisti, Dövlət mükafatı laureatı Fərhad Bədəlbəylinin 75 illiyinə həsr olunmuş yubiley konserti keçirilib.**



Tədbirdə Azərbaycan Respublikası Prezident Administrasiyasının nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə dirijorlar – Xalq artisti Murad Adıgözəlzadə və Əməkdar artist Fuad İbrahimovun çıxışları təqdim olunub. Yubilyarın öz çıxışı isə konserti daha da rövnəqləndirib.

Azərbaycan musiqi sənəti tarixində önəmli rolu olan sənət fədaisi Fərhad Bədəlbəyli zəngin musiqi xəzinəsini bir daha onu sevənlərə təqdim edib. Görkəmli pianoçu müasir Azərbaycan musiqi sənətini, milli ifaçılıq məktəbini zənginləşdirən, onun ənənələrini davam etdirən dəyərli sənətçilərdəndir. Dünyanın ən nüfuzlu konsert salonlarındakı çıxışları Fərhad Bədəlbəylini geniş auditoriyaya tanıdıb və sevdirib. Bu gün də o, fəal konsert yaradıcılığı ilə məşğuldur, dünyanın bir çox ölkələrinə qastrol səfərləri təşkil edir.

Ürəyi Azərbaycanla, doğma yurdu Şuşa ilə döyünən sənətçi müsahibələrinin birində Şuşada Polad Bülbüloğlu ilə birlikdə Elitar Musiqi Məktəbi açmaq istəyinin olduğunu da bildirib. Qeyd edib ki, yaxşı olar, burada muğam yarışları, müsabiqələr, festivallar keçirilsin. Cıdır düzündə müntəzəm tədbirlər təşkil olunsun. İnam böyükdür ki, belə də olacaq, elitar musiqimizin səsi daha da ucalardan gələcək.

Yubiley konserti böyük maraqla qarşılanıb, ifaçılar dönə-dönə alqışlanıb.

**Fidan HÜQUQQIZI**